LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

Aİ-nin Şərq Tərəfdaşlığı üçün COVID-19 Həmrəyliyi Proqramı - Səhiyyə

İcra müddəti: 15.06.2020 - 14.06.2022

ŞT ölkələri:

Azərbaycan, Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 34 720 000

İcraçı təşkilat(lar):

World Health Organization (WHO)

Sosial media hesablarına keçidlər:

Internet səhifəsi:

Layihənin təsviri:

Bu təşəbbüs COVID-19-un yayılmasına qarşı Avropanın birgə hərəkətinin tərkib hissəsidir. Zəif səhiyyə sisteminə malik ən həssas ölkələrə xüsusi diqqətin ayrıldığı təşəbbüs vasitəsilə qısamüddətli təcili ehtiyacların qarşılanması və uzunmüddətli təsirlərə qarşı mübarizə nəzərdə tutulur. Təşəbbüs tərəfdaş ölkələrin virusa qarşı mübarizə səylərini dəstəkləyir və onlara ən həssas insan qruplarının ehtiyaclarının daha yaxşı qarşılanmasında köməklik göstərir.

Gözlənilən nəticələr:

- 3-4 ay davam edəcək ilkin mərhələdə qısamüddətli tədbirlər kimi Azərbaycanın ən təcili ehtiyaclarına cavab verilməsi və ölkənin COVID-19-un sürətlə yayılmasının qarşısının alınması üçün bacarıqlarının yaradılmasının dəstəklənməsi nəzərdə tutulur. Buraya vacib tibbi cihazlar və vasitələin (süni tənəffüs aparatları, laboratoriya dəstləri, maskalar, gözlüklər və digər fərdi qoruyucu vasitələr) təmin edilməsi və gərəkli təlimlərin təşkili ilə xəstəxanalar və həkimlərin hazırlıq səviyyəsinin dəstəklənməsi daxildir. Həmçinin, bu mərhələdə COVID-19-a qarşı dövlət səviyyəsindəki mübarizənin əlaqələndirilməsinin və əhalinin maarifləndiriiməsi işinin dəstəklənməsi nəzərdə tutulur;
- 8-9 aylıq ortamüddətli tədbirlər mərhələsində vacib tibbi cihaz və vasitələrin təmin edilməsinin davam etdirilməsi və səhiyyə insitutlarına bacarıqların inkişaf etdirilməsi sahəsində dəstək göstərilməsi ilə ölkənin səhiyyə sisteminin COVID-19-a qarşı səfərbər edilməsinə dəstək veriləcəkdir;
- 12 ay davam edəcək uzunmüddətli həll kimi pandemiya dövründə əldə edilmiş təcrübəyə əsasən, ölkənin səhiyyə xidmətlərinin və fövqəladə vəziyyətlərdə cavab tədbirlərinin təmin edilməsi qabiliyyətinin qiymətləndirilməsi həyata keçiriləcək və fövqəladə vəziyyətlərə hazırlıq üçün milli fəliyyət planı hazırlanacaqdır.